AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

TƏTBİQİ RİYAZİYYAT VƏ KİBERNETİKA FAKÜLTƏSİ

Bakalavr pilləsi üzrə

"Tətbiqi Riyaziyyat" ixtisası

a/b 396 saylı qrupun tələbəsi

Həsənova Gülsüm Qadir qızının

‹‹ Pirsonun χ^2 kriterisi ››

m ö v z u s u n d a

B U R A X I L I Ş İ Ş İ

Elmi rəhbər : dosent, f.r.e.n. Əhmədova H.

Kafedra müdiri : prof., f.r.e.d. Hacıyev A.

BAKI - 2012

Mündəricat

Giriş

Riyazi statistika praktikanın tələblərindən yaranan və tətbiqi xarakter daşıyan bir elmdir. Bu gün elə bir sahə yoxdur ki, orada riyazi statistika metodlarından istifadə olunmasın. Tibb, ekologiya, maliyyə, bank işi, sosiologiya, texnika və digər sahələrdə bu gün riyazi statistika metodlarından geniş istifadə olunur. Son illər kompyuterlərdən istifadə edib riyazi statistika metodları vasitəsilə müxtəlif sahələrdə qarşıya çıxan mühüm məsələlərin həllinə nail olmaq mümkün oldu. Riyazi statistikaya əsaslanan yeni yaranmış elm sahələri – kompyuterli statistika, stoxastik maliyyə riyaziyyatı və digər yeni elm sahələri bu gün cəmiyyətin inkişafında böyük rol oynayır. Ona görə də riyazi statistika tətbiqi sahədə aparıcı bir elmə çevrilmişdir. Riyazi statistikanın ehtimal nəzəriyyəsi ilə əlaqəsi müxtəlif hallarda müxtəlif xarakter daşıyır.

Ehtimal nəzəriyyəsi kütləvi hadisə və ya prosesləri deyil, təsadüfi hadisə və ya prosesləri, məhz «ehtimali-təsadüfi» hadisə və ya prosesləri, yəni elələrini öyrənir ki, onlara uyğun ehtimal paylanmaları haqqında danışmaq məna kəsb etsin. Bununla belə, ehtimal nəzəriyyəsi, ixtiyari təbiətli, ehtimali-təsadüfi kateqoriyaya aid olmayan belə, kütləvi hadisə və ya proseslərin statistik öyrənilməsində müəyyən rol oynayır. Bu – ehtimal nəzəriyyəsinə əsaslanan *seçim metodu* nəzəriyyəsi və ölçmə xətaları nəzəriyyəsi vasitəsilə həyata keçirilir. Bu hallarda ehtimal qanunlarına öyrənilən hadisə və ya proseslərin özləri deyil, onları araşdırma üsulları tabe olur.

Ehtimal nəzəriyyəsi ehtimalı hadisələrin statistik araşdırılmalarında ən mühüm rol oynayır. Burada Riyazi statistikanın ehtimal nəzəriyyəsinə əsaslanan: ehtimali hipotezlərin statistik yoxlanılması nəzəriyyəsi, ehtimal paylanmalarının və bunlara daxil olan parametrlərin statistik qiymətləndirilməsi nəzəriyyəsi və s. kimi bölmələri tam mənası ilə tətbiqini tapa bilirlər. Bu daha dərin statistik metodların tətbiq oblastı olduqca dardır, çünki burada tələb olunur ki, öyrənilən hadisə və ya proseslərin özləri kifayət qədər müəyyən ehtimal qanunauyğunluqlarına tabe olsunlar.

Ehtimal qanunauyğunluqları böyük ədədlər qanunu əsasında statistik ifadə oluna bilinir.

I Fəsil.Təsadüfi kəmiyyət və onun paylanma funksiyası

1.1 Bəzi əsas anlayışlar

Təsadüfi kəmiyyətlər elementar hadisələr fəzasında təyin olunmuş funksiyalardır. $(\Omega, \mathsf{F}, \mathbf{P})$ – ehtimal fəzası olsun: Burada Ω, – elementar hadisələr fəzası, F – Ω-ın boş olmayan bütün alt çoxluqlarından təşkil olunmuş σ-cəbr, $\mathbf{P}$ – F -də təyin olunmuş ehtimaldır.

Ω – elementar hadisələr fəzasında təyin olunmuş və x-in bütün həqiqi qiymətlərində

$$\{\omega : \xi(\omega) < x\} \in \mathsf{F},$$

$$x \in (-\infty, +\infty) \qquad (1)$$

şərtini ödəyən ixtiyari $\xi = \xi(\omega)$ həqiqi funkiyasına *təsadüfi kəmiyyət* deyilir.

$$F_{\xi}(x) = \mathbf{P}\{\omega : \xi(\omega) < x\}, \quad x \in (-\infty, +\infty) \qquad (2)$$

funksiyasına $\xi(\omega)$ *təsadüfi kəmiyyətinin paylanma funksiyası* deyilir.

Təsadüfi kəmiyyətlərin diskret, mütləq kəsilməz kimi növləri ehtimsl nəzəriyyəsi və riyazi statistikada ən çox istifadə və tətbiq olunurlar.

Tərif: $(\Omega, \mathsf{F}, \mathbf{P})$ – ehtimal fəzasında verilmiş sonlu, yaxud hesabi qiymətlər alan $\xi(\omega)$ təsadüfi kəmiyyətinə *diskret təsadüfi kəmiyyət* deyilir.

Əgər $\xi(\omega)$ funksiyası $(\Omega, \mathsf{F}, \mathbf{P})$ ehtimal fəzasında verilmiş $x_1, \ldots, x_n, \ldots$ həqiqi qiymətlər alan diskret təsadüfi kəmiyyətdirsə, onda n-in hər bir qiymətində

$$\mathbf{P}\{\omega : \xi(\omega) = x_n\} = p_n \tag{3}$$

ehtimalı təyin olunmuşdur.

(3) ehtimallar toplusu $\xi(\omega)$ *diskret təsadüfi kəmiyyətinin paylanması* adlanır.

$\mathbf{P}\{\omega : \xi(\omega) = x_n\} = p_n, \ n = 1, 2, \ldots$ ehtimallarını təyin etmək üçün verilən ixtiyari bir qayda diskret $\xi(\omega)$ təsadüfi kəmiyyətinin *paylanma qanunu* adlanır. Paylanma qanunu hər hansı bir düsturla verilə bilər. Bu halda p_n ehtimalları $\xi(\omega)$-nın x_n qiymətini alması üçün müəyyən olunmuş bir düstur vasitəsilə ifadə olunur. $\xi(\omega)$ təsadüfi kəmiyyətinin ala biləcəyi bütün müxtəlif qiymətləri və uyğun olaraq hər bir qiyməti alması ehtimalları cədvəl şəklində verilə bilər:

$\xi(\omega)$ -nın mümkün qiymətləri	x_1	x_2	...	x_n	...
$\mathbf{P}\{\xi(\omega) = x_i\}$	p_1	p_2	...	p_n	...

Bu cədvəl $\xi(\omega)$ *diskret təsadüfi kəmiyyətinin ehtimallarının paylanma cədvəli* adlanır.

Qeyd edək ki, $p_n \geq 0$, $\sum_{n=1}^{\infty} p_n = 1$.

1.2 Təsadüfi kəmiyyətin paylanma funksiyasının əsas xassələri

$(\Omega, \mathrm{F}, \mathbf{P})$ – ehtimal fəzası, $\xi(\omega)$ – bu fəzada verilmiş təsadüfi kəmiyyət olsun.

$$F(x) = \mathbf{P}\{\omega : \xi(\omega) < x\}, \quad x \in (-\infty, +\infty) \tag{1}$$

bərabərliyi ilə təyin edilən $F(x)$ paylanma funksiyasının aşağıdakı xassələri vardır.

***1⁰**. $F(x)$ x -ə görə azalmayan funksiyadır.*

2⁰.Əgər $a<b$ olarsa,

$$\mathbf{P}\{\omega{:}a \le \xi(\omega) < b\} = F(b) - F(a) . \tag{2}$$

3⁰. $$\lim_{x\to-\infty} F(x) = 0 ; \qquad \lim_{x\to+\infty} F(x) = 1 . \tag{3}$$

4⁰. $F(x)$ soldan kəsilməzdir.

5⁰. $\mathbf{P}\{\omega : \xi(\omega) \le x\} = F(x+0)$.

6⁰. $\mathbf{P}\{\omega : \xi(\omega) = x\} = F(x+0) - F(x)$.

İxtiyari paylanma funksiyasının paylanma funksiyası olması haqqında A.N.Kolmoqorov aşağıdakı teoremi isbat etmişdir.

Teorem. *$F(x)$ aşağıdakı xassələrə malik funksiya olsun:*

***1)** $F(x)$ $(-\infty,+\infty)$ -da azalmayandır ;*

***2)** $F(x)$ soldan kəsilməzdir ;*

3) $\lim_{x\to-\infty} F(x) = 0, \ \lim_{x\to+\infty} F(x) = 1$.

Onda elə ($\Omega, \mathcal{F}, \mathbf{P}$) ehtimal fəzası və bu fəzada təyin oluna bilinən $\xi(\omega)$ təsadüfi kəmiyyəti vardır ki, $\xi(\omega)$ -nın paylanma funksiyası $F(x)$ -ə bərabərdir.

1.3 Òÿñàäöôè êÿìèééÿòèí ïàéëàíàñûíûí ñûõëûüû

$F(x)$ - $\xi(\omega)$ тясадцфи кямиййятинин пайланма функсийасы олсун. Яýÿð $\xi(\omega)$ тясадцфи кямиййятинин пайланма функсийасы x -èí áöòöí ãèéìÿòëÿðèíäÿ ($x \in (-\infty,+\infty)$)

êÿñèëìÿçàèðñÿ, ïîóí верилмèш áèð ãèéìÿòи àëìàñû åùòèìàëû ñûôûðäûð.

Ëàêèí åêñïåðèìåíòäÿ ìöøàùèäÿ îëóíà áèëÿí åëÿ òÿñàäöôè ùàäèñÿëÿð âàðäûð êè, îíëàðûí åùòèìàëû ñûôûðäûð; òÿñàäöôè ùàäèñÿíèí åùòèìàëû ñûôûð îëàрса, ïîóí ãåéðè-ìöìêöí ùàäèñÿ îëдуьуну вя йа ващид оларса, ïîóí éÿãèí ùàäèñÿ îëдуьуну щюкм етмяк сящв оларды.

Гейд едяк êè, ãåéðè-ìöìêöí ùàäèñÿíèí ещтималы ùÿìèøÿ ñûôðà, éÿãèí ùàäèñÿíèí ещтималы ùÿìèøÿ âàùèäÿ áÿðàáÿðäèð.

Яўÿð α ядяди $\xi(\omega)$ òÿñàäöôè êÿìèééÿòèíèí пайланма функсийасынын кясилмязлик нюгтясидирся, $\{\omega : \xi(\omega) = \alpha\}$ ìöìêöí îëà áèëÿí ùàäèñÿäèð, лакин

$$\mathbf{P}\{\omega : \xi(\omega) = \alpha\} = 0 .$$

Доьрудан да, ихтийари $\varepsilon > 0$ цчцн

$$\mathbf{P}\{\omega : \alpha \le \xi(\omega) < \alpha + \varepsilon\} = F(\alpha + \varepsilon) - F(\alpha)$$

бярабярлийиндян

$$\mathbf{P}\{\omega : \xi(\omega) = \alpha\} = \lim_{\varepsilon \to 0} [F(\alpha + \varepsilon) - F(\alpha) =$$

.

Бу мцлащизяляримиздян беля нятиъя алыныр ки, пайланма функсийасы кясилмяз олан тясадцфи кямиййятин щяр бир айрыъа гиймяти алма ещтималы сыфыр олдуьундан, ону ала биляъяйи гиймятлярин ещтималлары иля характеризя етмяк мцмкцн дейилдир.

Бу нюгтейи-нязярдян, ядяд охунун нюгтялярини кичик ($x, x+\Delta x$) èíòåðâàëлары иля явяз едиб, $\xi(\omega)$ òÿñàäöôè êÿìèééÿòèíèí ($x, x+\Delta x$) èíòåðâàëûíäàí ãèéìÿò àëìà åùòèìàëû – $\mathbf{P}\{\omega : \xi(\omega) \in [x, x + \Delta x)\}$ -ны Δx -ÿ áþëÿê, тясадцфи кямиййятин мцяййян характеристикасыны àëìалыйыг.

Яэяр

$$\lim_{\Delta x \to 0} \frac{\mathbf{P}\{\omega : x \le \xi(\omega) < x + \Delta x\}}{\Delta x}$$

(1)

варса, онда бу лимитя $\xi(\omega)$ *òÿñàäöôè êÿìèééÿòèíèí ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñû* äåéèëèð*;* бу функсийа $p(x)$ èëÿ èøàðÿ îëóíóð.

(6) ифадясинин ñóðÿòèíäÿêè åùòèìàëû (3) äöñòóðó èëÿ èôàäÿ åòñÿê,

$$p(x) = \lim_{\Delta x \to 0} \frac{F(x + \Delta x) - F(x)}{\Delta x} = F'(x)$$

(2)

äöñòóðóíó àëûðыã.

Áåëÿëèêëÿ, ÿýÿð $F(x)$ дифференсиалланандырса, òÿñàäöôè êÿìèééÿòèí ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñû îíóí ïàéëàíìà ôóíêñèéàñûíûí x-я эюря òþðÿìÿñèíÿ áÿðàáÿðäèð.

Tərif. $\xi(\omega)$ – ïàéëàíìà ôóíêñèéàñû $F(x)$ îëàí òÿñàäöôè êÿìèééÿò îëñóí*.* x-èí бцтцн ãèéìÿòлярèíäÿ ($-\infty < x < +\infty$)

$$F(x) = \int_{-\infty}^{x} p(u)\, du \qquad (3)$$

áÿðàáÿðëèéèíè þäÿéÿí èíòåãðàëëàíàí $p(u)$ *Бîðåë* ôóíêñèéàñû âàðñà, онда áó ôóíêñèéàéà $\xi(\omega)$ *òÿñàäöôè êÿìèééÿòèíèí ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñû äåéèëèð.*

Ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñû îëàí òÿñàäöôè êÿìèééÿòëÿð *"мцтляг êÿñèëìÿç" òÿñàäöôè êÿìèééÿòëÿð* àäëàíûð.

Àéäûíäûð êè, $\xi(\omega)$ мцтляг êÿñèëìÿç òÿñàäöôè êÿìèééÿò îëàðñà, èõòèéàðè $x \in (-\infty, +\infty)$ ö÷öí

$\mathbf{P}\{\omega: \xi(\omega) = x\} = 0$; $x < y$ øÿðòèíè þäÿéÿí ихтийари x, y-ëÿð ö÷öí

$$\mathbf{P}\{\omega: x \le \xi(\omega) \le y\} = \mathbf{P}\{\omega: x < \xi(\omega) < y\} =$$

$$= \mathbf{P}\{\omega: x \le \xi(\omega) < y\} = \mathbf{P}\{\omega: x < \xi(\omega) \le y\}$$

áÿðàáÿðëèêëÿðè þäÿíèлиð. Лакин бу бярабярликлярля ифадя олунан мцнасибятляря ясасян $\xi(\omega)$-нын мцтляг êÿñèëìÿç òÿñàäöôè êÿìèééÿò олдуьуну щюкм етмяк олмаз.

Рийази анализ курсундан мялумдур ки, $p(u)$ êÿñèëìÿç ôóíêñèéà îëàðñà, (3) áÿðàáÿðëèéè èëÿ òÿéèí îëóíàí $F(x)$ ôóíêñèéàñû äèôôåðåíñèàëëàíàíäûð âÿ $F'(x) = p(x)$. $F(x)$ àçàëìàéàí ôóíêñèéà îëäóüóíäàí $F'(x) \ge 0$, éÿíè $p(u)$ ìÿíôè îëìàéàí ôóíêñèéàäûð ($p(u) \ge 0$). Ôìóìè ùàëäà, (3) áÿðàáÿðëèéèíäÿí àéäûíäûð êè, $F'(x) = p(x)$ áÿðàáÿðëèéè Ëåáåã þë÷öñö ìÿíàäà ñàíêè ùÿð éåðäÿ þäÿíèлиð.

ßýÿð ξ òÿñàäöôè êÿìèééÿòèíèí ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñû âàðñà, онда

$$\mathbf{P}\{\omega: a \le \xi(\omega) < b\} = \int_a^b p(u)\, du. \tag{4}$$

Dîüðóäàн да

$$\mathbf{P}\{\omega: a \le \xi(\omega) < b\} = F(b) - F(a). \tag{5}$$

(5) вя (3) áÿðàáÿðëèклярindян иси (4) бярабярлийи алыныр.



Шякил 1

ξ òÿñàäöôè êÿìèééÿòèíè $[a,b)$ ïàð÷àñûíäàí ãèéìÿòëÿð àëìà åùòèìàëû øÿêèë 1-äÿ øòðèõëÿíìèø ñàùÿнин юлчцсцня бярабярдир. $p(x)$ пайланманын êÿñèëìÿç сыхлыг ôóíêñèéàсы îëàðñà, (4) áÿðàáÿðëèèéíÿ ясасян

$$\mathbf{P}\{\omega : x \leq \xi(\omega) < x + \Delta x\} = p(x)\Delta x + o(\Delta x)$$

олдуьу алыныр.

(3) áÿðàáÿðëèèéíäÿ $F(+\infty) = 1$ îëäóüóíó íÿçÿðÿ àëñàã,

$$\int_{-\infty}^{+\infty} p(u)\, du = 1 \tag{6}$$

îëäóüó àëûíûð.

Éóõàðûäà äåäèêëÿðèìèçè éåêóíëàøäûðàðàã, áèð äàùà ãåéä åäÿê êè, ξ òÿñàäöôè êÿìèééÿòèíèí ïàéëàíìàсыíûí ñûõëûã ôóíêñèéàñû $p(x)$ – (6) áÿðàáÿðëèèéíè þäÿéÿí, ìÿíôè îëìàéàí ôóíêñèéàäûð âÿ ÿêñèíÿ, (6) áÿðàáÿðëèèéíè þäÿéÿí, ìÿíôè îëìàéàí èõòèéàðè $p(x)$ ôóíêñèéàñû ìöÿééÿí áèð òÿñàäöôè êÿìèééÿòèí ïàéëàíìàñûíûí ñûõëûã ôóíêñèéàñûäûð.

1.4 Normal paylanma funksiyaları

Təsadüfi kəmiyyətin paylanma funksiyası bütün ədəd oxunda, paylanma funksiyasının birinci tərtib törəməsi isə ixtiyari sonlu intervalın sonlu sayda nöqtəsindən başqa bütün nöqtələrdə (ola bilər ki, bütün nöqtələrdə) kəsilməz olarsa, bu təsadüfi kəmiyyətin paylanma funksiyası *mütləq kəsilməz paylanma funksiyasıdır.*

Təsadüfi kəmiyyətin paylanma funksiyasının xasssələrindən belə nəticəyə gəlmək olar ki, guya paylanma funksiyasının kəsilməz olduğu bütün nöqtələrdə onun törəməsi də olmalıdır.

Mütləq kəsilməz paylanma funksiyalar ailəsindən norma paylanma funksiyasına baxaq:

Normal paylanma. Paylanmasının sıxlıq funksiyası

$$p(x)=\frac{1}{\sigma\sqrt{2\pi}}\cdot e^{-\frac{(x-a)^2}{2\sigma^2}}, \quad x \in (-\infty, +\infty) \tag{1}$$

olan təsadüfi kəmiyyətin paylanma funksiyası (a, σ) parametrli normal paylanma funksiyası adlanır.

Aydındır ki,

$$F(x)=\frac{1}{\sigma\sqrt{2\pi}}\int_{-\infty}^{x} e^{-\frac{(u-a)^2}{2\sigma^2}}du, \quad x \in (-\infty,+\infty) . \tag{2}$$

(2) düsturu ilə verilən $F(x)$ paylanma funksiyası a və σ parametrlərindən asılıdır. Əgər $a=0$, $\sigma=1$ olarsa, normal paylanma qanunu *standart paylanma qanunu* adlanır. Paylanmanın sıxlıq funksiyası $p(x)$ -in qrafiki $a=1$, $\sigma=2$ şəkil 1-də verilmişdir.



Şəkil 2

$p(x)$ funksiyasının qrafiki Qauss əyrisi adlanır; normal paylanma qanunu Qauss paylanması adı ilə də məlumdur. Bu funksiyanı ($p(x)$ -i) tədqiq edək:

1) $p(x)$ bütün ədəd oxunda təyin olunmuşdur;

2) $p(x)$ funksiyası x -in bütün qiymətlərində müsbətdir, yəni Qauss əyrisi absis oxundan yuxarıdadır;

3) $\lim\limits_{|x|\to\infty} p(x) = 0$, yəni absis oxu Qauss əyrisinin üfüqi asimptotudur;

4) (1) düsturundan

$$p'(x) = -\frac{x-a}{\sigma^3\sqrt{2\pi}} \cdot e^{-\frac{(x-a)^2}{2\sigma^2}}$$

olduğu aydındır.

Əgər $x < a$ olarsa, $p'(x) > 0$,

$x = a$ olarsa, $p'(x) = 0$,

$x > a$ olarsa, $p'(x) < 0$.

Deməli, $x = a$ qiymətində $p(x)$ özünün $\frac{1}{\sigma\sqrt{2\pi}}$-yə bərabər olan maksimal qiymətini alır.

5) $p(x)$-in ikinci tərtib törəməsini hesablayaq:

$$p''(x) = -\frac{1}{\sigma^3\sqrt{2\pi}} \cdot e^{-\frac{(x-a)^2}{2\sigma^2}} \cdot \left[1-\frac{(x-a)^2}{\sigma^2}\right].$$

Aydındır ki, $x = a+\sigma$ və $x = a-\sigma$ qiymətlərində $p''(x)$ sıfra bərabərdir. Bu nöqtələrdən keçərkən o, öz işarəsini dəyişir (bu nöqtələrdə funksiyanın qiyməti $\frac{1}{\sigma\sqrt{2\pi e}}$-yə bərabərdir). Beləliklə,

$$\left(a-\sigma, \frac{1}{\sigma\sqrt{2\pi e}}\right) \text{ və } \left(a+\sigma, \frac{1}{\sigma\sqrt{2\pi e}}\right)$$

nöqtələri Qauss əyrisinin əyilmə nöqtələridir.

6) $x-a$ fərqi $p(x)$-in analitik ifadəsində ((1) düsturu) kvadratı ilə verildiyindən $p(x)$-in qrafiki $x = a$ düz xəttinə görə simmetrikdir.

7) a parametri dəyişdikdə Qauss əyrisinin forması dəyişmir, o, yalnız absis oxu boyunca sürüşür: əgər a artarsa, əyri sağa, a azalarsa, Qauss əyrisi formasını dəyişməyərək "paralel" olaraq sola sürüşür.

σ parametri dəyişdikdə, qrafikdə baş verən dəyişiklikliyi araşdıraq.

Paylanmanın sıxlıq funksiyasının maksimum nöqtəsinin $\frac{1}{\sigma\sqrt{2\pi}}$ olduğunu yuxarıda qeyd etdik. Deməli, σ artdıqca Qauss əyrisinin ordinatı azalır və əyri absis oxuna doğru sıxılır; σ azaldıqca isə əyri sanki “hündürləşərək” ordinat oxu istiqamətində yuxarıya doğru (müsbət istiqamətdə) “dartılır” (şəkil 3).



Şəkil 3

Qeyd edək ki, a və σ parametrlərinin ixtiyari qiymətlərində normal əyri ilə absis oxu arasındakı sahə vahidə bərabərdir, belə ki,

$$\int_{-\infty}^{+\infty} p(x)\,dx = 1 .$$

Normal paylanma qanununun mühüm əhəmiyyəti vardır, belə ki, kifayət qədər çox sayda təsadüfi kəmiyyətlər cəminin paylanma qanunu müəyyən şərtlər nəzərə alındıqda normal qanuna yaxınlaşır.

II Fəsil.Təsadüfi kəmiyyətin ədədi xarakteristikaları

2.1 Riyazi gözləmə

Tərif 1. $\xi = \xi(\omega)$ təsadüfi kəmiyyəti $x_1, x_2, \cdots$ qiymətlərini uyğun olaraq $p_1, p_2, \cdots$ ehtimalları ilə alırsa və $\sum_{k=1}^{\infty} x_k \cdot p_k$ sırası mütləq yığılandırsa,

$$M\xi = \sum_{k=1}^{\infty} x_k \cdot P\{\omega : \xi(\omega) = x_k\} = \sum_{k=1}^{\infty} x_k \cdot p_k \qquad (1)$$

ədədinə d*iskret* ξ *təsadüfi kəmiyyətinin riyazi gözləməsi* deyilir. Buradan aydındır ki, $M|\xi| < +\infty$ olarsa, diskret təsadüfi kəmiyyətin riyazi gözləməsi vardır.

Tərif 2. ξ təsadüfi kəmiyyətinin paylanma funksiyası $F(x)$-dirsə və

$$\int_{-\infty}^{+\infty} |x| \, dF(x) < +\infty$$

olarsa,

$$M\xi = \int_{-\infty}^{+\infty} x \, dF(x) \qquad (2)$$

bərabərliyinin sağ tərəfindəki inteqrala ξ *təsadüfi kəmiyyətinin riyazi gözləməsi deyilir* (bərabərliyin sağ tərəfindəki inteqral Stiltyes inteqralıdır).

Tərif 3. ξ təsadüfi kəmiyyətinin paylanmasının sıxlıq funksiyası $p(x)$-dirsə və

$$\int_{-\infty}^{+\infty} |x| \, p(x) \, dx < +\infty$$

olarsa,

$$M\xi = \int_{-\infty}^{+\infty} x \, p(x) \, dx \qquad (3)$$

bərabərliyinin sağ tərəfindəki inteqrala ξ *təsadüfi kəmiyyətinin riyazi gözləməsi* deyilir.

$(\Omega, \mathcal{F}, \mathbf{P})$ ehtimal fəzasında verilmiş ξ təsadüfi kəmiyyətinin riyazi gözləməsi –

$$\int_{\Omega} \xi(\omega) \mathbf{P}(d\omega)$$

Lebeq inteqralı varsa,

$$\mathbf{M}\xi = \int_{\Omega} \xi(\omega)\, \mathbf{P}(d\omega). \tag{4}$$

bərabərliyinin sağ tərəfindəki inteqrala deyilir.

$A_1, \ldots, A_m$ hadisələri Ω-nın bölgüsünü təşkil edirsə, yəni $i \neq j$ olduqda, $A_i \cap A_j = \varnothing$, $\sum_{i=1}^{m} A_i = \Omega$ olarsa və $\xi = \xi(\omega)$ təsadüfi kəmiyyəti

$$\xi = \xi(\omega) = \sum_{i=1}^{m} x_i \cdot I_{A_i}(\omega)$$

kimi ifadə olunarsa, ξ-yə sadə təsadüfi kəmiyyət deyilir; x_i-lər ξ təsadüfi kəmiyyətin ala biləcəyi mümkün qiymətlərdir.

Sadə təsadüfi kəmiyyətin riyazi gözləməsi

$$\mathbf{M}\xi = \sum_{i=1}^{m} x_i \mathbf{P}(A_i)$$

bərabərliyi ilə təyin olunur.

2.2. Riyazi gözləmənin xassələri

Riyazi gözləmənin əsas xassələri ilə tanış olaq.

1^0. *Sabitin riyazi gözləməsi sabitin özünə bərabərdir, yəni* c *sabitdirsə,* $\mathbf{M}c = c$.

2^0. *Sabiti riyazi gözləmə işarəsi xaricinə çıxarmaq olar, yəni* ξ *– təsadüfi kəmiyyət və* c *– sabitdirsə, onda*

$$\mathbf{M}(c \cdot \xi) = c \cdot \mathbf{M}\xi. \tag{1}$$

3^0. *ξ və η təsadüfi kəmiyyətlərinin riyazi gözləmələri vardırsa, $\xi+\eta$ təsadüfi kəmiyyətinin riyazi gözləməsi vardır və cəmin riyazi gözləməsi toplanan təsadüfi kəmiyyətlərin riyazi gözləmələrinin cəminə bərabərdir:*

$$\mathbf{M}(\xi+\eta)=\mathbf{M}\xi+\mathbf{M}\eta \,. \tag{2}$$

Qeyd edək ki, 3^0 xassəsi təsadüfi kəmiyyətlərin biri diskret, digəri kəsilməz olduqda da doğrudur.

N ə t i c ə . *Riyazi gözləmələri olan, sonlu sayda təsadüfi kəmiyyətlər cəminin riyazi gözləməsi vardır və cəmin riyazi gözləməsi toplanan təsadüfi kəmiyyətlərin riyazi gözləmələrinin cəminə bərabərdir:*

$$\mathbf{M}(\xi_1+...+\xi_n)=\mathbf{M}\xi_1+...+\mathbf{M}\xi_n \,. \tag{3}$$

Ümumi halda 2^0 və 3^0 xassələrini aşağıdakı kimi ifadə etmək olar:

$$\mathbf{M}(c_1\xi_1+c_2\xi_2+...+c_n\xi_n)=$$
$$=c_1\mathbf{M}\xi_1+c_2\mathbf{M}\xi_3+...+c_n\mathbf{M}\xi_n \,. \tag{4}$$

4^0. *Riyazi gözləmənin multiplikativlik xassəsi.*

T e o r e m 1 . Riyazi gözləmələrə malik ξ və η asılı olmayan təsadüfi kəmiyyətlərinin hasilinin riyazi gözləməsi vardır və hasilin riyazi gözləməsi bu təsadüfi kəmiyyətlərin riyazi gözləmələri hasilinə bərabərdir:

$$\mathbf{M}(\xi, \eta) = \mathbf{M}\xi \cdot \mathbf{M}\eta \,. \tag{5}$$

Ümumi halda riyazi gözləmənin multiplikativlik xassəsi aşağıdakı kimi ifadə olunur.

T e o r e m 2 . $\xi_1,\dots,\xi_n$ asılı olmayan təsadüfi kəmiyyətlərinin riyazi gözləmələri vardırsa ($\mathbf{M}\,|\xi_k|<+\infty$), onda $\xi_1\cdot\dots\cdot\xi_n$ təsadüfi kəmiyyətlərinin riyazi gözləmələri vardırsa və

$$\mathbf{M}(\xi_1 \cdot \xi_2 \cdot \ldots \cdot \xi_n) = \mathbf{M}\xi_1 \cdot \mathbf{M}\xi_2 \cdot \ldots \cdot \mathbf{M}\xi_n = \prod_{k=1}^{n}$$

(6)

Nəticə. ξ_i -lər eyni qanunla paylanmış asılı olmayan və riyazi gözləmələri olan təsadüfi kəmiyyətlər olarsa, onda

$$\mathbf{M}(\xi_1 \cdot \ldots \cdot \xi_n) = (\mathbf{M}\xi_1)^n .$$

(7)

5⁰. Əgər $a \le \xi \le b$ olarsa, onda $a \le \mathbf{M}\xi \le b$ doğrudur. $\mathbf{M}\xi \le \mathbf{M}|\xi|$ bərabərsizliyi həmişə doğrudur.

6⁰. $I_A(\omega)$ – A hadisəsinin indikatorudur, yəni

$$I_A(\omega) = \begin{cases} 1, \omega \in A; \\ 0, \omega \overline{\in} A. \end{cases}$$

Onda

$$\mathbf{M}I_A(\omega) = 1 \cdot \mathbf{P}(A) + 0 \cdot \mathbf{P}(\overline{A}) = \mathbf{P}(A),$$

yəni

$$\mathbf{M}I_A(\omega) = \mathbf{P}(A).$$

(8)

7⁰. Əgər ixtiyari $\omega \in \Omega$ üçün $\xi(\omega) \ge \eta(\omega)$ olarsa, onda

$$\mathbf{M}\xi \ge \mathbf{M}\eta . \quad (9)$$

8⁰. **Çebışov bərabərsizliyi.** $\xi = \xi(\omega)$ – mənfi olmayan təsadüfi kəmiyyət və $a > 0$ olarsa, onda

$$\mathbf{P}\{\xi \ge a\} \le \frac{1}{a}\mathbf{M}\xi .$$

(10)

(11) – *Çebışov bərabərsizliyi* adlanır.

Teorem. $g(x)$ mənfi olmayan və ξ-nin qiymətlər çoxluğunda azalmayan funksiyadırsa və $\mathbf{M}\,|g(\xi)| < +\infty$ olarsa, onda ixtiyari $a > 0$ üçün

$$\mathbf{P}\{\xi(\omega) > a\} \leq \frac{\mathbf{M}g(\xi)}{g(a)} . \qquad (11)$$

Normal paylanma qanunu ilə paylanmış təsadüfi kəmiyyətin riyazi gözləməsi. (a, σ) parametrli normal paylanma qanunu ilə paylanmış ξ təsadüfi kəmiyyətinin paylanmasının sıxlıq funksiyası

$$p(x) = \frac{1}{\sigma\sqrt{2\pi}} e^{-\frac{(x-a)^2}{2\sigma^2}}$$

olduğundan, (7) düsturuna əsasən

$$\mathbf{M}\xi = \int_{-\infty}^{+\infty} x \frac{1}{\sigma\sqrt{2\pi}} e^{-\frac{(x-a)^2}{2\sigma^2}} dx .$$

Bərabərliyin sağ tərəfində $z = \dfrac{x-a}{\sigma}$ əvəzləməsi aparaq. Onda

$$\mathbf{M}\xi = \frac{1}{\sqrt{2\pi}} \int_{-\infty}^{+\infty} (\sigma z + a)\, e^{-\frac{1}{2}\cdot z^2} dz =$$

$$= \frac{\sigma}{\sqrt{2\pi}} \int_{-\infty}^{+\infty} z \cdot e^{-\frac{1}{2}\cdot z^2} dz + \frac{a}{\sqrt{2\pi}} \int$$

.

Belə ki, $z \cdot e^{-\frac{1}{2}\cdot z^2}$ tək funksiya olduğundan $\int_{-\infty}^{+\infty} z \cdot e^{-\frac{1}{2}\cdot z^2} dz = 0$.

$\dfrac{1}{\sqrt{2\pi}} e^{-\frac{1}{2}\cdot z^2}$ funksiyası (0,1) parametrli normal paylanma qanununun sıxlıq funksiyası olduğundan

$$\int_{-\infty}^{+\infty} \frac{1}{\sqrt{2\pi}} e^{-\frac{1}{2}\cdot z^2} dz = 1 .$$

Beləliklə, (a, σ) parametrli normal qanunla paylanmış təsadüfi kəmiyyətin riyazi gözləməsi a parametrinə bərabərdir.

2.3 Təsadüfi kəmiyyətlərin momentləri. Dispersiya

Tərif. k-nın mənfi olmayan tam qiymətləri üçün ξ^k təsadüfi kəmiyyətinin riyazi gözləməsi vardırsa, yəni $\mathbf{M}|\xi|^k < +\infty$ olarsa, $\mathbf{M}\xi^k$ kəmiyyətinə ξ təsadüfi kəmiyyətinin k tərtib momenti, $\mathbf{M}|\xi|^k$ kəmiyyətinə ξ*-nin* k *tərtib mütləq moment*i deyilir. $(\xi-\mathbf{M}\xi)$ təsadüfi kəmiyyətinin momentləri *mərkəz momentlər* adlanır. Təsadüfi kəmiyyətin ən çox istifadə olunan ədədi xarakteristikalarından biri də təsadüfi kəmiyyətin dispersiyası adlanan – təsadüfi kəmiyyətin ikinci tərtib mərkəzi momentidir.

Dispersiyanı $\mathbf{D}\xi$ ilə işarə etsək, tərifə görə

$$\mathbf{D}\xi = \mathbf{M}(\xi-\mathbf{M}\xi)^2.$$

Qeyd edək ki, dispersiya təsadüfi kəmiyyətin mümkün qiymətlərinin onun riyazi gözləməsi ətrafında nə dərəcədə sıx səpələnməsini xarakterizə edir.

Diskret ξ təsadüfi kəmiyyətinin $x_1, x_2, \ldots$ qiymətlərini $\mathbf{P}\{\xi = x_k\} = p_k$, $k = 1,2,\ldots$ ehtimalları ilə alırsa, $(\sum_k p_k = 1)$, onun dispersiyası

$$\mathbf{D}\xi = \sum_k (x_k - \mathbf{M}\xi)^2 p_k = \sum_k x_k^2 p_k - \left(\sum_k x_k p_k\right)^2 \tag{1}$$

düsturu; paylanma funksiyası $F(x)$ olan ξ təsadüfi kəmiyyətinin dispersiyası

$$\mathbf{D}\xi = \int_{-\infty}^{+\infty} (x-\mathbf{M}\xi)^2\, dF(x) \tag{2}$$

düsturu; mütləq kəsilməz təsadüfi kəmiyyətinin dispersiyası

$$\mathbf{D}\xi = \int_{-\infty}^{+\infty} (x-\mathbf{M}\xi)^2\, p(x)\,dx \tag{3}$$

düsturu ilə hesablanır; burada $p(x)$ – ξ-nin paylanmasının sıxlıq funksiyasıdır.

$(\xi-\mathbf{M}\xi)^2$ mənfi olmadığından $\mathbf{D}\xi$ həmişə təyin olunmuşdur və $\mathbf{D}\xi = +\infty$ da ola bilər.

Riyazi gözləmənin xassələrindən istifadə edərək, dispersiyanın başqa bir ifadəsini də almaq olar:

$$\mathbf{D}\xi = \mathbf{M}\xi^2 - (\mathbf{M}\xi)^2 . \tag{4}$$

Dispersiya və momentlərin bəzi xassələri ilə tanış olaq.

1⁰. Əgər $\mathbf{D}\xi$ sonludursa, onda ixtiyari $\varepsilon > 0$ üçün

$$\mathbf{P}\{|\xi - \mathbf{M}\xi| > \varepsilon\} \leq \frac{\mathbf{D}\xi}{\varepsilon^2} \tag{5}$$

bərabərsizliyi doğrudur.

2⁰. $\mathbf{D}\xi = 0$ olarsa, onda $\mathbf{P}\{\xi = \mathbf{M}\xi\} = 1$.

3⁰. İxtiyari ξ təsadüfi kəmiyyətinin dispersiyası mənfi deyildir: $\mathbf{D}\xi \geq 0$.

4⁰.Əgər c ixtiyari sabitdirsə, onda

$$\mathbf{D}(c \cdot \xi) = c^2 \mathbf{D}\xi , \qquad \mathbf{D}(\xi + c) = \mathbf{D}\xi .$$

5⁰. ξ və η asılı olmayan təsadüfi kəmiyyətlərdirsə, onda

$$\mathbf{D}(\xi \pm \eta) = \mathbf{D}\xi + \mathbf{D}\eta .$$

Teorem. Əgər $\xi_1, \xi_2, ..., \xi_n$ sonlu dispersiyalara malik, asılı olmayan təsadüfi kəmiyyətlərdirsə, onda

$$\mathbf{D}\sum_{k=1}^{n} \xi_k = \sum_{k=1}^{n} \mathbf{D}\xi_k \tag{6}$$

bərabərliyi doğrudur.

6⁰. $\mathbf{M}\xi^2 = \mathbf{D}\xi + (\mathbf{M}\xi)^2$,

$$|\mathbf{M}\xi| \leq \sqrt{\mathbf{M}\xi^2} ,$$

$$\mathbf{D}\xi \leq \mathbf{M}\xi^2 .$$

Normal paylanmanın mərkəzi momentləri. (a,σ) parametrli normal qanunla paylanmış ξ təsadüfi kəmiyyətinin paylanmasının sıxlıq funksiyası $p(x)$ olsun.

Təsadüfi kəmiyyətin ikinci tərtib mərkəzi moment dispersiya olduğundan, normal paylanma qanununun dispersiyası aşağıdakı kimi təyin olunur:

$$\mathbf{D}\xi = \mathbf{M}(\xi - a)^2 = \sigma^2 .$$

Beləliklə, (a,σ) parametrli normal paylanma qanunundakı σ parametri bu qanunla paylanmış təsadüfi kəmiyyətin kvadratik orta yayınmasıdır. Qeyd edək ki, (a,σ) parametrli normal paylanma qanunu $a = \mathbf{M}\xi$ və $\sigma^2 = \mathbf{D}\xi$ parametrləri tamamilə təyin olunur.

2.4 Kovariasiya

Eyni ehtimal fəzasında verilmiş ξ və η təsadüfi kəmiyyətləri arasında ola bilər ki, funksional və ya qeyri-funksional asılılıq olsun; lakin ola da bilər ki, onlar bir-birindən asılı olmasın. Bu kəmiyyətlər arasındakı asılılığı kəmiyyətcə xarakterizə etmək üçün kovariasiya adlanan ədədi xarakteristikadan istifadə olunur.

T ə r i f . ξ və η təsadüfi kəmiyyətlərinin riyazi gözləmələri uyğun olaraq $\mathbf{M}\xi$ və $\mathbf{M}\eta$ olsun ($\mathbf{M}\xi$ və $\mathbf{M}\eta$ -nın varlığı fərz olunur). ξ və η *təsadüfi kəmiyyətlərinin kovariasiyası (yaxud korrelyasiya momenti)* $\mathbf{M}\left((\xi - \mathbf{M}\xi)(\eta - \mathbf{M}\eta)\right)$ ədədinə deyilir və $\operatorname{cov}(\xi;\eta)$ kimi işarə olunur:

$$\operatorname{cov}(\xi;\eta) = \mathbf{M}\left((\xi - \mathbf{M}\xi)(\eta - \mathbf{M}\eta)\right). \tag{1}$$

Riyazi gözləmənin tərifindən istifadə etsək, (1) bərabərliyindən aşağıdakı düstur alınır:

$$\operatorname{cov}(\xi,\eta) = \mathbf{M}(\xi\cdot\eta) - \mathbf{M}\xi\cdot\mathbf{M}\eta . \tag{2}$$

(2) düsturundan aydındır ki, ξ və η asılı olmayan təsadüfi kəmiyyətlərdirsə,

$$\operatorname{cov}(\xi,\eta) = 0 .$$

Aydındır ki,

$$\mathbf{cov}(\xi;\xi)=\mathbf{D}\xi .$$

ξ və η ixtiyari təsadüfi kəmiyyətlər olsun. Onda

$$\mathbf{D}(\xi\pm\eta)=\mathbf{M}((\xi-\mathbf{M}\xi)^2+$$

$$+(\eta-\mathbf{M}\eta)^2\pm2\mathbf{M}(\xi-\mathbf{M}\xi)(\eta-\mathbf{M}\eta))$$

olduğundan,

$$\mathbf{D}(\xi\pm\eta)=\mathbf{D}\xi+\mathbf{D}\eta\pm2$$

. (3)

Qeyd edək ki, ξ və η asılı olmayan təsadüfi kəmiyyətlərdirsə, $(\xi-\mathbf{M}\xi)$ və $(\eta-\mathbf{M}\eta)$ da asılı olmayan təsadüfi kəmiyyətlərdir. Bu halda $\mathbf{M}(\xi\cdot\eta)=\mathbf{M}\xi\cdot\mathbf{M}\eta$ olduğundan, $\mathrm{cov}\,(\xi;\eta)=0$.

Lakin ξ və η təsadüfi kəmiyyətlərinin kovariasiyası sıfır olarsa, onların asılı olmayan təsadüfi kəmiyyətlər olduğunu hökm etmək olmaz!

Qeyd edək ki, kovariasiya ξ və η təsadüfi kəmiyyətlərinin asılılıq xarakteristikasıdır.

2.5 Ehtimal paylanmalarının forma və yerləşmə xarakteristikaları

Təsadüfi kəmiyyətin bütün mümkün qiymətləri müəyyən bir sabit ətrafında qruplaşarsa, bu sabit onun yerləşmə xarakteristikasını ifadə edir. Riyazi gözləmə belə ədədi xarakteristikalardandır. Təsadüfi kəmiyyətin ədəd oxu üzərində yerləşmə xarakteristikalarından ən çox istifadə olunan *moda* və *median* ilə tanış olaq.

Tərif. ξ kəsilməz təsadüfi kəmiyyətinin paylanmasının sıxlıq funksiyasının maksimum qiymətini aldığı nöqtəyə *onun modası* deyilir; *əgər moda yeganədirsə*, ξ-nin paylanması *unimodal*, əks halda – *multimodal paylanma* adlanır.

ξ diskret təsadüfi kəmiyyətdirsə və $\mathbf{P}\{\xi=x_i\}=p_i$, $\sum\limits_i p_i=1$ olarsa, ξ-nin modası x_i-lərin qiymətlərindən elələridir ki, onlar üçün

$$\mathbf{P}\{\xi = x_i\} = \max_i p_i$$

bərabərliyi ödənilir.

ξ diskret təsadüfi kəmiyyətinin modasını x_M ilə işarə etsək, onda

$$\mathrm{P}\{\xi = x_M\} \geq \mathrm{P}\{\xi = x_i\} = p_i, \quad i = 1,2,...$$

bərabərsizliyi doğrudur.

T ə r i f .

$$F(x) = \mathbf{P}\{\omega: \xi(\omega) < x\}, \qquad x \in (-\infty,$$

$\xi = \xi(\omega)$ təsadüfi kəmiyyətinin paylanma funksiyası olsun. x arqumentinin

$$F(x) \leq 0{,}5 \leq F(x+0), \quad x \in (-\infty, +\infty) \qquad (1)$$

bərabərsizlikləri ilə təyin olunan qiymətinə ξ təsadüfi kəmiyyətinin (və ya $F(x)$ paylanma funksiyasının) medianı deyilir.

$F(x)$ mütləq kəsilməz paylanma funksiyası olarsa, heç olmazsa elə bir x qiyməti vardır ki, x -in bu qiymətində $F(x) = 0{,}5$ bərabərliyi ödənilir.

Qeyd edək ki, ixtiyari paylanmanın heç olmazsa bir medianı vardır; lakin riyazi gözləmə barədə bunu söyləmək olmaz.

Diskret ξ təsadüfi kəmiyyəti üçün (1) bərabərsizliyi analoji olaraq

$$\sum_{i<x} p_i \leq 0{,}5 \leq \sum_{i \leq x} p_i$$

bərabərsizlikləri ilə ifadə olunur; burada

$$p_i = \mathbf{P}\{\xi = x_i\}, \quad i = 1, 2, \ldots; \quad \sum_i p_i = 1.$$

(a, σ) parametrli normal qanunla paylanmış təsadüfi kəmiyyətin modası a -ya, medianı – $\sigma = \sqrt{\mathbf{D}\xi}$ -yə bərabərdir.

Tərif. ξ təsadüfi kəmiyyətinin birinci, ikinci, üçüncü və dördüncü tərtib momentləri vardırsa və sonludursa,

$$As = \frac{M(\xi - M\xi)^3}{\sqrt{D\xi^3}}$$

kəmiyyətinə *asimmetriya əmsalı*;

$$Es = \frac{M(\xi - M\xi)^4}{(D\xi)^2} - 3$$

kəmiyyətinə ξ təsadüfi kəmiyyətinin paylanmasının *eksses əmsalı* deyilir. Bu kəmiyyət ξ təsadüfi kəmiyyətinin paylanma funksiyası $F(x)$-in standart normal paylanma funksiyasından fərqlənməsini xarakterizə edir. Aydındır ki, təsadüfi kəmiyyətin paylanma qanunu hər hansı $x = a$ nöqtəsinə görə simmetrikdirsə, onda təsadüfi kəmiyyətin üçüncü tərtib mərkəzi momenti (ümumiyyətlə, bütün tək tərtib mərkəzi momentlər) sıfra bərabər olur. Odur ki, əgər üçüncü tərtib mərkəzi moment sıfırdan fərqli olarsa, paylanma qanunu simmetrik ola bilməz. Ona görə də paylanma qanununun asimmetriyasını xarakterizə etmək üçün üçüncü tərtib mərkəzi momentdən istifadə olunur. Standart normal paylanma qanunu ilə paylanmış təsadüfi kəmiyyətin eksses və asimmetriya əmsalları sıfra bərabərdir.

r-in tam qiymətlər aldığını fərz edirik. Bu paylanmanın asimmetriya və eksses əmsalları asanlıqla hesablanan aşağıdakı düsturlarla ifadə olunur:

$$As = \frac{2-p}{\sqrt{r(1-p)}}; \quad Es = \frac{6}{r} + \frac{p^2}{r(r-p)}$$

.

Ümumiyyətlə, normal qanunla paylanmış təsadüfi kəmiyyətin paylanmasından fərqlənən paylanmaları tədqiq edərkən, bu fərqlənməni kəmiyyətcə xarakterizə edən xüsusi ədədi xarakteristikalardan istifadə olunur.Məhz bu hallarda paylanmanın assimmetriya və eksses xarakteristikaları əvəzolunmazdır. Standart normal paylanma qanunu üçün bu xarakteristikalar sıfırdır. Ona görə də, əgər tədqiq olunan paylanmanın asimmetriya əmsalı və ekssesi çox da böyük deyilsə, bu halda onun paylanmasının standart normal paylanmaya yaxın olduğunu söyləmək olar. Əksinə, asimmetriya əmsalı və ekssesin böyük qiymətləri – onun standart normal paylanmadan kifayər qədər fərqlənməsinə dəlalət edir.

Qeyd edək ki, əgər təsadüfi kəmiyyətin paylanma əyrisinin “uzun hissəsi” onun riyazi gözləməsindən sağdadırsa, asimmetriya müsbətdir: $As > 0$ (şəkil 4, *a*); əgər “uzun hissə” riyazi gözləmədən soldadırsa, asimmetriya mənfidir, yəni $As < 0$ (şəkil 4, *b*). M_0 – moda nöqtəsidir.



Şəkil 4

